

Müqayisəli Ədəbiyyatşünaslıq

Comparative Literature Studies

ISSN : 2663-4414 E-ISSN : 2709-0762
Nəşr edən/Publisher : AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Cild/Vol, 2, Sayı/No. 2, 80-87, 2025
DOI: https://doi.org/10.59849/2663-4414.2025.2.80

Araşdırma Məqaləsi / Research Article

# Bioqrafik Romanın Təkamülü: Dünya Ədəbiyyatının Təcrübəsi İlə Azərbaycan Nəsrinin Paralelliyində

# The Evolution of the Biographical Novel: In parallelism of the Azerbaijani prose with the experience of world literature

**Nigar İsayeva**
**E-mail:** nisayeva82@gmail.com
**Tel:** +994506694183
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Xülasə:** Məqalədə bioqrafik roman janrının antik dövrdən müasir dövrə qədər keçirdiyi tarixi inkişaf mərhələləri, onun ədəbiyyat və tarix elmləri arasında körpü rolunu oynaması araşdırılır. Bioqrafik roman yalnız tarixi şəxsiyyətlərin həyat yolunu təsvir etməklə kifayətlənmir, həm də onların daxili aləmini, psixoloji xüsusiyyətlərini və dövrün ictimai-mədəni kontekstini bədii vasitələrlə canlandırır. Janrın əsas nəzəri problemi tarixi faktla bədii təxəyyülün dialektikası kontekstində təhlil edilir. Antik dövr Plutarxın "əxlaqi bioqrafiyası" şəxsiyyəti təqlid üçün nümunə kimi təqdim edir. İntibah dövrü (XV-XVII) humanist ideyalar təsiri altında şəxsiyyətin fərdi keyfiyyətlərinə diqqət artmış, Giorgio Vasarinin "İtalyan Rəssamlarının Həyatları" (1550) əsəri sənətçi bioqrafiyalarının klassik nümunəsi olmuşdur. Maarifçilik (XVIII əsr) Samuel Consonun "tənqidi metodu" rasionallığı və sistemli təhlili gətirir. Məqalədə formalaşan fərqli metodologiyalar psixoanalitik, tarixi-siyasi, demokratik üslub nəzərdən keçirilir. XIX əsrdə romantizm tarixi şəxsiyyətləri idealizə etsə də (Şatobrian "Rene", 1802), realizm təsiri ilə janr daha obyektiv, faktlara əsaslanan istiqamətdə inkişaf etmişdir. Bu tendensiya Turqenevin "Ata və oğullar", Tolstoyun "Müharibə və Sülh" kimi əsərlərində aydın şəkildə öz əksini tapır. XX-XXI əsrlərdə Stefan Sveyqin "psixoanalitik bioqrafiyası" daxili motivləri ("Mariya Stüart", "Mariya Antuanetta"), Hilari Mantelin "siyası realizmi" makro-tarixi konteksti ("Wolf Hall"), İrvinq Stounun "demokratik üslubu" ("Yaşamaq yanğısı", "Əzab və ehtiram") isə populyarlaşmanı hədəfləyir.

Azərbaycan ədəbiyyatında janrın kökləri "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanlarına bağlanır. Azərbaycan nəsrindəki (Səməd Vurğun, Məmməd Səid Ordubadi, Əzizə Cəfərzadə) bu təcrübə, dünya ədəbiyyatının realizm və psixologizm ənənələri ilə paralel inkişafı kontekstində təhlil edir. Məmməd Səid Ordubadinin ("Qılınc və Qələm") epik realizmi, Səməd Vurğunun ("Vaqif") romantik idealizasiyası və Əzizə Cəfərzadənin ("Natəvan haqqında hekayələr", "Bakı-1501", "Sabir" və s.) tarixi-mədəni yaddaşın bərpası missiyası xüsusi vurğulanır. Məqalə janrın fərdi taleni kollektiv yaddaşla birləşdirmək funksiyasını qabardır.

**Açar sözlər**: Bioqrafik roman, inkişaf mərhələləri, tarix və təxəyyül, ədəbiyyat nəzəriyyəsi

Məqalənin gəldiyi tarix/Received: 17.08.2025
Qəbul tarixi/Accepted: 19.12.2025
Nəşr tarixi/ Available Online: 24.12.2025

**Abstract:** The article explores the historical stages of development of the biographical novel genre from antiquity to the present day and its role as a bridge between literature and historical sciences. The biographical novel is not limited to describing the life path of historical figures, but also revives their inner world, psychological characteristics and the socio-cultural context of the era through artistic means. The main theoretical problem of the genre is analyzed in the context of the dialectics of historical fact and artistic imagination. Plutarch's ancient "moral biography" presents the personality as a model for imitation. Under the influence of humanist ideas, the Renaissance ($15^{th}$ - $17^{th}$ centuries) increased attention to the individual qualities of the personality, and Giorgio Vasari's "Lives of Italian Artists" (1550) became a classic example of artist biographies. The Enlightenment ($18^{th}$ century) brought rationality and systematic analysis to Samuel Johnson's "critical method". The article examines various methodologies that emerged: psychoanalytic, historical-political and democratic styles. Although in the 19th century romanticism idealized historical figures (Chatobrien's "Rene", 1802), under the influence of realism, the genre developed in a more objective, fact-based direction. This tendency is clearly reflected in works such as Turgenev's "Fathers and Sons", Tolstoy's "War and Peace". In the 20th-21st centuries, the focus has been on the "psychoanalytic biography" ("The Fire of Life", "Pain and Honor"), aimed at popularizing Stephen Swayze's internal motives ("Mary Stuart", "Marie Antoinette"), Hilary Mantel's "political realism" macro-historical context ("Wolf Hall"), and Irving Stone's "democratic style" ("Lust for the Life", "The agony and the Ectasy").

The roots of the genre in Azerbaijani literature are associated with the epics "The Book of Dede Gorgud", "Koroglu". This experience in Azerbaijani prose (Samad Vurgun, Mammad Said Ordubadi, Aziza Jafarzadeh) analyzes it in the context of the parallel development of world literature with the traditions of realism and psychologism. The epic realism of Mammad Said Ordubadi ("The Sword and the Pen"), the romantic idealization of Samad Vurgun ("Vagif") and Aziza Jafarzadeh's mission to restore historical and cultural memory ("Stories about Natavan", "Baku-1501", "Sabir", etc.) are especially emphasized. The article emphasizes the function of the genre to connect individual fate with collective memory.

**Keywords:** Biographical novel, stages of development, history and imagination, literary theory

**Cite as(APA 7):** İsayeva, N. (2025). Bioqrafik Romanın Təkamülü: Dünya Ədəbiyyatının Təcrübəsi İlə Azərbaycan Nəsrinin Paralelliyində. *Müqayisəli ədəbiyyatşünaslıq*, *2*(2), 80-87. https://doi.org/10.59849/2663-4414.2025.2.80

**Giriş / *İntroduction:*** Bədii ədəbiyyatın janr zənginliyi içində bioqrafik roman xüsusi mövqeyə malikdir. Bu janrın əsas məqsədi tarixi və ya müasir şəxsiyyətlərin həyat yolunu bədii təxəyyül vasitəsilə oxucuya təqdim etməkdir. Bioqrafik roman yalnız faktları sadalamaqla kifayətlənmir, həm də onların daxili aləmini, psixoloji xüsusiyyətlərini və dövrün ictimai-mədəni mənzərəsini əks etdirir. Bu baxımdan bioqrafik roman həm tarix, həm də bədii yaradıcılığın qovşağında formalaşmış janr hesab olunur.

Bioqrafik roman, tarix və ədəbiyyatın kəsişməsində yerləşən bir janrdır. O, tarix və sənətin, faktla fantaziyanın, sənədli materiallarla bədii təxəyyülün sintezini təmsil edir. Bu təsəvvürlər yalnız tarixi faktların və real hadisələrin kontekstində deyil, həm də ədəbi-estetik müstəvidə şərh olunur. Janrın əsas nəzəri mübahisəsi məhz bu kəsişmədə – "tarixçinin vicdanı ilə romançının sərbəstliyi" (Lüksaç, 2018, s. 45) arasında optimal nisbəti tapmaqdır. Bu janr sadəcə qəhrəmanın həyat faktlarını təkrarlamağa deyil, həm də onun daxili dünyasını, ruhi mübarizələrini və zəfərlərini bədii vasitələrlə canlandırır. Bioqrafik roman janrının inkişaf yolu uzun və dolanbaclı olmuş, müxtəlif dövrlərdə şəxsiyyət, tarix və sənətin rolu haqqında dəyişən təsəvvürləri əks etdirmişdir. Bizim idrak sistemimizdə keçmiş və keçmişdə yaşamış tarixi şəxsiyyətlər barədə müxtəlif məlumatlar mövcuddur və bu məlumatlar əsasında müəyyən konseptual təsəvvürlər formalaşmışdır. Bu təsəvvürlər yalnız tarixi faktların və real hadisələrin kontekstində deyil, həm də ədəbi-estetik müstəvidə şərh olunur. Əslində, roman və bioqrafik roman janrlarının inkişafı bir-biri ilə sıx və mürəkkəb şəkildə bağlıdır. Onların qarşılıqlı əlaqəsini böyük bir ağacın budaqları ilə müqayisə etmək olar: hər iki janr eyni kökdən qidalanaraq müxtəlif istiqamətlərdə inkişaf etmişdir.

**Əsas mətn / *Main part***

Roman – insan həyatını müxtəlif yönləri ilə əks etdirən iri həcmli bədii əsərdir. Onun təkamülü cəmiyyətdəki baş verən hadisələrlə, tarixi məqamlarla, mədəni və fəlsəfi dəyişikliklərlə sıx bağlıdır. Roman janrı, ən ümumi mənada, insan təcrübəsinin uydurulmuş və ya yenidən təsəvvür olunmuş reallıqlar vasitəsilə bədii inikasıdır. "Romançılığın böyük sürətlə inkişafı və romanın ədəbiyyatın aparıcı bir janrına çevrilməsi ictimai-analitik səciyyəsi, ictimai-siyasi hadisələrə, həyat ziddiyyətlərinə, münasibətlərə geniş çərçivədə nüfuzu, həyatı daha əhatəli, daha çeşidli şəkildə təsviri, obraz və xarakterlərin kamilliyi ilə bağlıdır" (Şərifova, 2024, s. 28). Bioqrafik roman isə, bundan fərqli olaraq, konkret tarixi şəxsiyyətin həyat yolunu, taleyini və daxili aləmini bədii şəkildə qavramağa yönəlmişdir. Bu baxımdan bioqrafik roman həm ədəbi yaradıcılığın, həm də tarixi bilginin sintezini özündə ehtiva edir. Roman janrının elementləri antik hekayələrdə, orta əsrlərdə cəngavərlərə həsr edilmiş əsərlərdə, intibah dövrü novellalarda özünü göstərirdi.

Bioqrafik romanların mühüm cəhətlərindən biri insanın identikliyini, şəxsiyyətin özünəməxsus xüsusiyyətlərini və onun ədəbi-mədəni irs ilə əlaqəsini öyrənmək baxımından əhəmiyyətli olmasıdır. Bu janr yalnız bir şəxsin həyatının xronoloji təsvirini təqdim etmir, eyni zamanda həmin dövrün ictimai, siyasi və mədəni mənzərəsini də əks etdirir. Beləliklə, bioqrafik roman həm fərdi, həm də kollektiv yaddaşın formalaşmasında mühüm vasitəyə çevrilir.

Bioqrafik romanın ən səciyyəvi xüsusiyyətlərindən biri tarixi faktlarla təxəyyül arasında incə, lakin ahəngdar bir balansı qorumaq bacarığıdır. Əsərin bədii təsvirləri tarixi həqiqətləri kölgədə qoymadan, əksinə onları daha da dərindən dərk etməyə şərait yaradır. Bu, metodoloji baxımından innovativ yanaşma kimi qiymətləndirilə bilər. Başqa sözlə, bioqrafik roman həm tarixi gərçəkliyin elmi-nəzəri öyrənilməsinə xidmət edir, həm də oxucunu həmin gerçəkliklə bədii-emosional

səviyyədə qarşılaşdırır. Müasir nəzəriyyədə bu, "tarixin bədii hekayəyə çevrilməsi" kimi izah edilir". (Uayt, 1973, s. 7-8)

Bioqrafik roman janrının əsas nəzərəçarpan xüsusiyyəti, tarix və təxəyyül arasında qurulan münasibətidir. Zaman keçdikcə hər bir yanaşmanın fərqli üstünlükləri olub. Erkən bioqrafik romanlarda (XVIII-XIX əsrlər) tarixi dəqiqliyə daha çox önəm verilirdi. İrvinq Stoun kimi müəlliflər sənədləşdirilmiş faktlara bağlı qalıb, təxəyyüldən isə yalnız boşluqları doldurmaqla kifayətlənirdi. Müasir dövrdə isə (XX əsr psixoanalitik roman) təxəyyül əsas yaradıcı amil kimi ön plana çıxır, burada daxili monoloq, şüur axını texnikaları psixoloji həqiqəti üzə çıxarmağa xidmət edir. İlk olaraq onu qeyd etmək lazımdır ki, bioqrafik roman tərcümeyi-hal deyil. Əgər tarixi dəqiqlik hər şeydən üstün sayılsaydı, bu janr inkişaf etməz və sadəcə tərcümeyi-hal və ya tarix kitabı hüdudlarında qalardı. Tarixi faktları, materialları ədəbi-bədii janra çevirən, canlılıq qatan məhz təxəyyüldür. Tarix xronoloji və təsadüfi hadisələrin toplusudur. Təxəyyül isə bu hadisələri süjet xəttinə salır, onlara dramatik ardıcıllıq qazandırır. Bütün bunlara baxmayaraq, tarix yenə də əsas təməl olaraq qalır. Tarix kontekstdən məhrum edilmiş təxəyyül sadəcə fantaziyaya çevrilir.

Nəticə etibarilə, bioqrafik roman janrı ədəbiyyat və tarix elmləri arasında körpü rolunu oynayır. O, insan talelərinin təhlilində yalnız faktları sadalamaqla kifayətlənməyib, onları bədii-estetik kontekstdə təqdim etməklə oxucunun həm idrak, həm də emosional sferasına təsir göstərir. Bu isə janrın ən mühüm metodoloji üstünlüyünü təşkil edir.

Bioqrafik janrın ilk nüvələri antik dövrdə formalaşmağa başlamışdır. Bu dövrdə yaradılmış əsərlər müasir bioqrafik romanın birbaşa əcdadı sayıla bilməz, lakin onun konseptual əsaslarını qoymuşdur. Plutarxın "Müqayisəli Həyatlar" (lat.Vitae parallelae) əsəri (təqribən b.ə. 45-120 illəri) bu sahədə həlledici rol oynamışdır. Məşhur yunan tarixçisi 46 bioqrafiyada (23 yunan, 23 romalı) yunan və romalı böyüklərinin həyatını müqayisəli şəkildə təsvir etmişdir. Plutarx faktları təkcə ardıcıllıqla vermir, həm də şəxsiyyətlərin xarakterini, daxili aləmini açıqlamağa çalışır. Plutarxın metodu "əxlaqi bioqrafiya" (moral biography) adlanır. O, xarakteri tarixdən üsrün tutaraq şəxsiyyəti təqlid üçün nümunə kimi təqdim edirdi. Misal olaraq buna Makedoniyalı İsgəndər ilə Yuli Sezarın, Perikl ilə Fabius Maksimusun müqayisəsini göstərmək olar. "Müqayisəli Həyatlar" da Yuli Sezar Makedonski haqqında bele deyirdi: "Doğurdanmı mənim yaşımda İsgəndərin bu qədər xalqı idarə etməsi sizə kədərlənmək üçün yetərsiz səbəb kimi görünür və mən hələ də diqqətəlayiq heç nəyə nail ola bilməmişəm!" (William Heinemann, 1914, s. 57).

Plutarxın məqsədi sadəcə tarixi hadisələri danışmaq yox, xarakteri, əxlaqı və şəxsiyyətləri göstərmək idi. O, yazırdı: "Biz tarix yox, həyat yazırıq. Çünki bəzən kiçik bir söz, təsadüfi bir hərəkət insanın xarakterini böyük döyüşlərdən və məşhur zəfərlərdən daha yaxşı açır" (Plutarch, 1914, s. 45). Onun metodologiyası sonrakı bioqrafik yazıçılara əsaslı təsir göstərmişdir. Antik dövrün digər əhəmiyyətli nümunələri arasında Svetoniusun "On iki Sezarın həyatı" (De vita Caesarum) əsərində Yuli Sezardan Dominitiana qədər olann 12 imperatorundan bəhs edilir. Bu kitab üç fəsildən ibarətdir. Bu yaxşı redaktə edilmiş cildin məqsədi Svetoniusun ədəbi keyfiyyətlərinə, xüsusən də " Sezarların tərcümeyi-halları"nda daha balanslı bir qiymət vermək və daha az tanınan bəzi əsərləri haqqında düşündürücü tezislər irəli sürməkdir" (Power and Gibson, 2016, s. 280-281), Filostratın "Apolloniya Tianskinin həyatı" (Vita Apolloni), Tacitusun tarixi əsərləri xüsusi yer tutur.

Orta əsrlər (V-XV əsrlər) bioqrafik janrın inkişafında xüsusi mərhələ təşkil edir. Bu dövrdə iki əsas istiqamət formalaşır: dini bioqrafiyalar və cəngavər romanları. Dini bioqrafiyalarda müqəddəslərin həyatları (haqioqrafiya) bioqrafik yazıların əsasını təşkil edirdi. "Haqioqrafiya"

teoloji-simvolik yanaşmanı əks etdirir. Qəhrəmanın həyatı ilahi məqsədə xidmət edir. "Qızıl Əfsanə" (Legenda Aurea) – təxminən 1260-cı ildə Genuya arxiyepiskopu, Dominikan rahibi Yakobus de Voragin tərəfindən tərtib edilmiş müqəddəslərin həyat hekayəsi toplusudur. Hər bir hekayə vaizlərin həyatından bəhs edir, onların əməllərini, şəhadətlərini, möcüzələrini təfərrüatlandırır. Müqəddəslərin həyatlarını öyrənən janra haqioqrafiya deyilir, onun məqsədi övliyaların həyatlarını təqlid üçün bir nümunə kimi təqdim etməkdir. XII əsrdə yaşamış Yakobus de Voragin, Lombardiya əyalətinin rahibi, həmçinin Qərbi Avropanın ən böyük şəhərlərindən biri olan Genuya şəhərinin arxiyepiskopu idi. Onun "Qızıl Əfsanə" adlı əsəri Avropada bu gün də müqəddəslərin formalaşmasında mühüm rol oynayır. Əsərin adındakı "Aurea" (lat. qızıl) sözü onun mənəvi dəyərini, vurğulamaq üçün işlədilmişdir. Orta əsrlərdə bu kitab Bibliyadan sonra ən çox oxunan əsərlərdən biri idi vaizlər, həm də rəssamlar üçün əsas mənbə olmuşdur (Granger Ryan, 1993, s. 143). Cəngavər romanları XII-XIII əsrlərdə fransız ədəbiyyatında Kretien de Truanın yaradıcılığı ilə çiçəkləndi. "Kral Artur və Yuvarlaq Masa cəngavərləri" dövründə yaradılan əsərlər yarı-tarixi, yarı-əfsanəvi şəxsiyyətlərin həyatını romantik prizmadan təsvir edirdi. "Tristian və İzolda" kimi əsərlər bioqrafik elementlərlə epik ənənəni birləşdirərək, sonrakı bioqrafik romanların prototipini yaratdı.

Oxucu kütləsinin artması, şəxsi həyata, insan psixologiyasına marağın yüksəlməsi janrın inkişafına səbəb olmuşdur. XV-XVII əsrlər intibah dövrü bioqrafik janrın inkişafında yeni mərhələ başladı. Bu dövrdə humanist ideyaların təsiri altında şəxsiyyətin fərdi keyfiyyətlərinə xüsusi diqqət artdı. Giorgio Vasarini "İtalyan Rəssamlarının, Heykəltəraşların, və Memarlarının Həyatları" (1550) əsəri sənətçi bioqrafiyalarının klassik nümunəsi oldu. Vasari ilk dəfə olaraq sənətçinin şəxsi həyatını, yaradıcılıq prosesini və dövrünün mədəniyyətinə təsirini kompleks şəkildə təhlil etdi. Bu əsər bioqrafik roman janrının tam tələblərinə cavab verməsə də, yazıçının istifadə etdiyi üslub, xronoloji təfərrüatlara yer verməsi, bu əsəri gələcəkdə bioqrafik roman janrına aid etməyə əsas verir. Bu dövrdə avtobioqrafik elementlər gücləndi, Benvenuto Çellininin avtobioqrafiyası, Montainin "Esselər"i bioqrafik janrın yeni imkanlarını nümayiş etdirdi.

XVIII əsrdə maarifçilik ideyalarının təsiri ilə bioqrafik roman janrı ədəbiyyatda özünə geniş yer tapmağa başladı. Bu dövrdə yazılan əsərlərdə əsas məqsəd tarixi şəxsiyyətin həyatını ibrətamiz nümunə kimi təqdim etmək idi. Samuel Consonun "Şairlər Həyatları" (1779-1781) əsəri bioqrafik roman janrının inkişafında mühüm mərhələ hesab olunur. Conson ilk dəfə olaraq müəllifin yaradıcılığını həyat təcrübəsindən ayırmadan sistemli şəkildə təhlil etdi və janr üçün yeni standart qoydu. S.Consonun "tənqidi bioqrafiya" metodu rasional, sistemli təhlili tətbiq etdi.

Şarl Ogüst Sent-Bövin bioqrafik metodu da bu dövrdə formalaşmağa başladı. O, şəxsi həyatı bədii yaradıcılıqdan ayırmadan təqdim edir, müəllifin əsərini anlamağın onun həyat yolunu dərk etməklə mümkün olduğunu irəli sürürdü. Onun metodu sosial-psixoloji determinizmə əsaslanır. Sent-Böv bu barədə yazırdı: "Bir yazıçını tanımaq üçün onun əsərlərini oxumaq kifayət deyil; onun həyatını, dövrünü, düşmənlərini, vərdişlərini də öyrənmək lazımdır"(Charles Augustin, 1851, s. 42). XIX əsrin əvvəllərində romantizm ədəbi cərəyanı bioqrafik romanın inkişafında yeni mərhələ yaratdı. Romantizmdə tarixi şəxsiyyətlər idealizə olunur, onların həyatı poetik şəkildə bədii təxəyyüllə yenidən qurulurdu. Fransua Rene de Şatobrianın "Rene" (1802) və avtobioqrafik "Qəbir arxasında xatirələr" əsərləri romantik bioqrafik romanın əsasını qoydu. "Qəbir arxasında xatirələr" fransız romantizminin zirvəsi hesab olunur. Bu əsər yalnız bir yazıçının avtobioqrafiyası deyil, həm də XX əsrin ilk yarısında Avropanın mənəvi panoramasıdır. Andre Moroa (ədəbiyyatşünas) bu əsər haqqında demişdi: "Qəbir arxasında xatirələr" təkcə avtobioqrafiya deyil, həm də tarixin poeziyasıdır. Mən öz tariximi dövrümün tarixi ilə birləşdirmişəm, cünki onları bir-birindən ayırmaq mümkün deyil.

Mənim həyatım artıq keçmişə aiddir; böyük hadisələrin təsirini hiss etmişəm və onları həm şahid, həm də duyğulu bir insan kimi qeyd etməyə çalışmışam" (Fransua-Rene de Şatobrian, 2018, s. 23). Bu dövrdə yaradılan əsərlər tarixi faktları emosional intensivliklə birləşdirir. Bu əsərlər avtobioqrafik roman janrının təkmilləşdirilməsində böyük rol oynayır. Hər iki əsərdə klassik avtobioqrafiya ilə ədəbi əsər arasında sintez, xronoloji təsvir və retrospektiv düşüncələrin birləşməsi, real hadisələrin bədii şəkildə işlənməsi göstərilir. Şatobrianın bu əsərlərdə həyat keçirdiyi yenilik ondan ibarətdir ki, o, şəxsi həyat materialını universal bəşəri problemlərin ifadə vasitəsinə çevirib. Artıq XIX ikinci yarısından bioqrafik roman janrının inkişafında həlledici dövr başlayır. Realizm cərəyanının təsiri ilə bioqrafik roman daha elmi, faktlara əsaslanan janra çevrildi. Romantik ədəbi janrda qələmə alınan əsərlərdə müəlliflər əsasən fərdi hiss və həyəcanları, emosional yanaşma tərzini, subyektiv təəssürat və təxəyyül elementlərini ön plana çəkirlər. Bunun əksinə olaraq, bioqrafik janrda yazılmış əsərlərdə müəllifin əsas məqsədi bədii uydurmadan çox, real faktların dəqiq təqdimatı, müşahidələrin obyektiv şəkildə təsviri və şəxsin həyat yolunun elmi-nəzəri baxımından təhlilidir. Bu səbəbdən romantik üslub daha çox bədii-estetik təəssürat yaratmağa xidmət edirsə, bioqrafik üslub tarixi və mədəni gerçəkliklərin sistemli, ardıcıl və etibarlı şəkildə oxucuya çatdırılmasını təmin edir. İvan Serqeyeviç Turgenevin "Ata və oğullar" (1862), Lev Tolstoyun "Hərb və Sülh" (1869) əsərlərindəki qəhrəmanların şəxsi keyfiyyətlərini, daxili dünyalarını, ziddiyyətlərini, mübarizələrini bioqrafik roman janrı incə şəkildə açır. "Hərb və Sülh" romanında çoxlu bədii obrazlar olsa da, Tolstoyun real tarixi şəxsiyyətlər əsasında, real obrazlar yaratması əsəri inandırıcı edib. Real obrazlar əsərdə qurduqları dialoqlarla dövrün sosial problemlərini çılpaqlığı ilə göstərə bilib. "Eqoizm, boşboğazlıq, axmaqlıq, hər şeydə vecsizlik − qadınlar özlərini olduğu kimi göstərəndə belə olurlar. Cəmiyyətdə onlara baxın; deyəsən, nəsə var, amma heç nə, heç nə, heç nə yoxdur! Onunla evlənmə, əzizim, onunla evlənmə", − knyaz Andrey yekunlaşdırıb (Tolstoy, 1863-1869, s. 49)

Bioqrafik roman XX və XXI əsrlərdə ədəbiyyatın ən məhsuldar sahələrindən biri olaraq həm metodoloji, həm də struktur baxımından böyük inkişaf yolu keçmişdir. Dünya ədəbiyyatında bioqrafik romanın modernləşməsində bir neçə istiqamət əsas rol oynayır. Avstriyalı yazıçı Stefan Sveyqin psixoanalitik yanaşması bu janrı yeni bir səviyyəyə qaldırmışdır. O, Freydin psixoanalizini tətbiq edərək, tarixi fiqurların hərəkətlərinin dərin şüuraltı motivlərini üzə çıxarmağa çalışır. Bu, "psixoloji roman"ın bioqrafiyaya inteqrasiyadır. Stefan Sveyq bioqrafik romanlarda faktları deyil, şəxsiyyətin daxili gərçəkliyini əsas götürür. O yazırdı: "Tarix səhvlərlə yazılır, çünki onu insanlar yaradır"(Mariya Antuanetta 1932). O, "Mariya Stüart", "Mariya Antuanetta" kimi əsərlərində tarixi fiqurların həyatını psixoanalitik metodlar vasitəsilə təhlil edərək, onların xarakterlərini və hərəkətlərinin dərin psixoloji səbəblərini üzə çıxarmağa çalışmışdır. Bu dövr tarixi roman janrının yenidən doğuşu mərhələsidir. İngilis ədəbiyyatının məşhur siması Hilari Mantelin (1952-2020) "Wolf Hall" əsəri isə "siyasi-tarixi roman" ənənəsini davam etdirməklə, ona tarixi-bioqrafik roman janrında dünya şöhrəti qazandırmışdır. XVI əsrdə İngiltərədə baş verən tarixi hadisələri və xüsusilə də, Tomas Kromvelin siyasi həyatından, mübarizələrindən, yüksəlişindən və süqutundan bədii formada ifadə etmişdir. Əsərdə yalnız faktlara əsaslanmayıb, eyni zamanda qəhrəmanın xarakterini, yaşadığı mühiti, daxili dünyasını da canlandırmışdır.

XX əsrdə Amerika ədəbiyyatının bioqrafik roman janrıın inkişafı dünya ədəbiyyatının zirvəsinə qalxmışdı. Ən görkəmli nümayəndələrindən biri İrvinq Stoundur ( 1903-1989). İrvinq Stounun yaradıcılığı isə "sənədləşdirilmiş bədii bioqrafiya" üslubunu təmsil edir. Onun ən böyük töhfəsi əsərlərinin geniş oxucu kütləsinə xitab etməsi və janrın demokratikləşməsi oldu. İrvinq Stoun romanlarının tarixi reallıqları ədəbi imkanlar daxilində necə əks və intepretasiya etməsinin detallı şəkildə tədqiq edilməsi açıq görünür. Onun bioqrafik romanları özündə yalnız tarixi şəxsiyyətlərin

həyatını canlandıran təhkiyə materialı xüsusiyyətini daşımır, eyni zamanda, faktlar və bədii təxəyyül məhsulundan ibarət maraqlı və dərin əsərlərdir. İrvinq Stoun bu metod ilə oxuculara keçmişə maraqlı baxış bucağı ilə baxmaq imkanı yaratmışdır (Мишина, 2010, c. 148). “Mənsubiyyət” (Çarlz Darvin, 1859), “Yəhərdə dənizçi” (Cek London, 1938), “Əbədi sevgi, yaxud da Meri Tod və Avraam Linkoln” (Avraam Linkoln, 1954), “Yaşamaq yanğısı” (1961- ci il Van Qoqun həyat və yaradıcılıq yolundan bəhs edib), “Əzab və Ehtiram” (Mikelancelo,1961), “Ağlın ehtirasları” (Ziqmund Freyd, 1971) kimi əsərlər oxucu tərəfindən yüksək qiymətləndirilmişdir. İrvinq Stounun bioqrafik roman janrında yazdığı əsərlərin səciyyəvi xüsusiyyəti tarixi reallıqları bədii təxəyyüllə vəhdətindən ibarət idi. Hər bir əsəri yazmamışdan əvvəl yazıçı uzun illər axtarışlar aparır, arxivləri, şəxsi kolleksiyaları, qəhrəmanların məktublarını, onlar haqqında xatirələrini öyrənirdi və bunların hamısı bioqrafik roman janrında yazılan əsərləri həm bədii, həm də tarixi baxımdan dəyərli edirdi.

Azərbaycan ədəbiyyatında bioqrafik romanın tərəqqisi, ümumiyyətlə, bədii nəsrin və xüsusən də tarixi-bədii əsərlərin təkamülü ilə sıx bağlıdır. Bu janrın əsas inkişaf tendensiyalarını və dövrlərini müəyyən ardıcıllıqla vermək mümkündür. 1. XX əsrin əvvəlləri Sovet dövrü. Bu dövrdə Sovet idealogiyasına uyğun olaraq, inqilabçıların, xalq qəhrəmanlarının, görkəmli elm adamlarının, mədəniyyət xadimlərinin həyatını əks etdirən əsərlər meydana gəlməyə başlayır. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyatından bəhs edən Məmməd Səid Ordubadinin “Qılınc və Qələm” dördcildlik tarixi bioqrafik romanı, Mir Cəlal Paşayevin Azərbaycanın görkəmli satirik şairi Mirzə Ələkbərə həsr olunmuş “Yolumuz hayanadır?”, Əli Vəliyevin söz ustası Süleyman Rəhimovun 60 illik yubileyinə həsr edilmiş “Xalq yazıçısı” monoqrafiyası, Mirzə İbrahimovun “Heykəl”, “İradə”, “Çandranın üsyanı” adlı hekayələri və başqalarının əsərlərini nümünə göstərmək olar. 2. XX əsrin ortalarında klassik bioqrafik romanının formalaşması dövrüdür. Yazıçlar tarixi şəxsiyyətlərin bədii, psixoloji portretini yaratmağa daha çox diqqət yetirirlər. Mərkəzdə şəxsiyyətin özü, onun daxili dünyası və mübarizəsi dayanır. Azərbaycan ədəbiyyatında bu janr yeni olmasına baxmayaraq, onun kökləri xalq yaradıcılığında xüsusən də dastanlarda, qəhrəmanlıq hekayələrində özünü göstərir. Bioqrafik roman janrının kökləri epik ənənələrə bağlansa da, müasir roman janrı kimi inkişafı XX əsrə təsadüf edir. “Kitabi-Dədə Qorqud”, “Koroğlu” dastanları müəyyən mənada bioqrafik xüsusiyyətlər daşıyır. Azərbaycan dastanlarda qəhrəmanların həyat yolu, xarakteri, mübarizə motivləri epik ənənənin əsas komponenti kimi bədii şəkildə təqdim olunur və bu, bioqrafik romanın ilkin mənəvi–estetik köklərini formalaşdırır. XIX əsrin sonlarından etibarən Azərbaycan yazıçıları həm Şərq, həm də Qərb ədəbiyyatındakı bioqrafik roman nümunələrindən təsirlənərək bu istiqamətdə ilk bədii təcrübələrini yaratmağa başlamışlar. Bu dövr janrın Azərbaycan ədəbiyyatında təşəkkül mərhələsi kimi qiymətləndirilə bilər. Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov öz əsərlərində tarixi şəxsiyyətlərin, ictimai-siyasi xadimlərin obrazlarını yaratmaqla bioqrafik üsluba yaxınlaşdılar.

XX əsr Azərbaycan bioqrafik roman janrının təşəkkül dövrü kimi qəbul olunur. Səməd Vurğunun “Vaqif” (1937), Məmməd Səid Ordubadi “Qılınc və qələm” (1946), İsa Muğannanın “Məşhər” (1978), Yusif Çəmənzəminlinin “İki od arasında” (1937-ci il aprel ayında tamamladığı və ilk dəfə 1964-cü ildə "Qan içində" adı ilə çap olunan romanıdır), “Qızlar bulağı” (1934) əsərində Çoponun həyatının üç fərqli dövrünü əhatə edir. Həmçinin Fərman Kərimzadə “Xudafərin körpüsü” (1982) və bu əsərin davamı olan “Çaldıran Döyüşü” (1984-1985) romanlarında ilk Səfəvilər dövlətinin banisi və hökmdarı, Azərbaycan şairi Şah İsmayılın uşaq illərindən, hakimiyyətə gəlişindən, ictimai-siyasi həyatını canlandırmağa çalışıb. Azərbaycan ədəbiyyatında

bu janrın inkişafı, dünya təcrübəsi ilə paralel inkişafı görünür . Səməd Vurğunun “Vaqif” əsərində Vaqif obrazının romantik idealizasiyası XIX əsr Avropa romantik bioqrafiya ənənəsinin (Şatobrian) milli nəsrə təsirini göstərirsə, Məmməd Səid Ordubadinin “Qılınc və Qələm” romanı Lev Tolstoyun epik realizmi ilə paralellik təşkil edir. Hər iki əsərdə tarixi şəxsiyyətin taleyi geniş sosial-tarixi mənzərə fonunda təhlil edir. Əsərlərini əsasən bioqrafik roman janrında yazan Azərbaycanın görkəmli yazıçısı Əzizə Cəfərzadənin yaradıcılığını qeyd etməmək mümkün deyil. Əzizə Cəfərzadə Azərbaycan nəsrində bioqrafik hekayə və roman janrının inkişafında mühüm rol oynamış yazıçılardandır. Onun “Natəvan haqqında hekayələr” (1963) əsərində Qarabağın son xanı Xurşidbanu Natəvanın həyatını qələmə almışdır. Bu hekayələr toplusundan sonra o, Seyid Əzim Şirvaniyə həsr olunmuş “Aləmdə səsim var mənim” (1973-1978), Abbas Səhhətin həyatı və yaradıcılığını əks etdirən “Yad et məni” (1980), Azərbaycanın dahi şairi Şah İsmayıl Xətainin fəaliyyətinə həsr edilmiş “Bakı-1501” (1981), satirik şair Mirzə Ələkbər Sabirə həsr olunmuş “Sabir” (1989), əsərləri xüsusi qeyd olunmalıdır. Böyük Azərbaycan satirikinin həyat və yaradıcılıq yolunun tarixi-xronoloji müstəvidə əks olunduğu “Sabir” romanında müəllif ədibin uşaqlıq çağlarından ta ölümünədək uzanan dövrün bədii xronikasını yaratmağa çalışmışdır. Yazıçı öz qəhrəmanını əsrin fonunda canlandırmaqla onun sıradan bir şəxsiyyət olmadığını, yalnız ədəbi qayələrlə yaşamadığını, cəmiyyəti böyük hədəflərə səsləyən ciddi sosial missiya daşıdığını qabartmaq məramı izləmişdir (Əfəndiyeva, 2022, s. 16). Əzizə Cəfərzadə, Azərbaycan tarixində silinməz izlər qoyan, haqqında yazdığı həmin qadınların obrazını yaratmaqla mənəvi irs yaradıb. Qadın qəhrəmanların hamısı zülmə, ədalətsizliyə qarşı apardıqları mübarizədə necə güclü olduqları açıq hiss etdiriblər. Oxuduğumuz əsərlərdə, romanlarda, baxdığımız filmlərdə güclü kişi obrazı, qəhrəmanı görəndə biz təəccüblənmirik. Çünki güclülük, mərdlik, igidlik kişilik xüsusiyyətləri ilə vəhdət təşkil edir. Lakin bu xüsusiyyətlər qadın simasında təcəssüm edəndə biz oxucuları heyran edir. Zərif cinsin nümayəndəsi hesab edilən qadının nələri bacara bildiyinin, yeri gələndə tək başına mübarizə apardığının və mübarizədən qalibiyyətlə ayrılmağının da şahidi oluruq (İsayeva, 2025, s. 183). “Bir səsin faciəsi” (1995) romanında səsi vala yazılmış ilk qadın xanəndəsi Mirzə Güllərin həyatına nəzər salınır (Cəfərzadə, 1997, s. 2), “Cəlaliyyə” (1983) əsərində XIII əsrin əvvəllərində Naxçıvan hakimi olmuş Məhəmməd Cahan Pəhləvanın qızı Məlikə Cəlaliyyənin vətəni, torpağı qorumaq üçün verdiyi qurbanlardan, “Zərrintac-Tahirə”də (1996) XIX əsrdə İranda baş verən Babilər hərəkatına başçılıq edən türksoylu şairə Tahirə Qürrətüleyindən azadlıq və ədalət uğrunda mübarizə aparan, xalqın yaddaşında iz qoymuş qəhrəman qadın obrazlarından bəhs olunur (İsayeva, 2025, s. 183) Bu yaradıcılıq nümunələri Əzizə Cəfərzadəni Azərbaycan ədəbiyyatında bioqrafik janrın aparıcı nümayəndələrindən birinə çevirmişdir.

Bioqrafik roman janrında yazan müəllif əsasən tərcümeyi-halda olan sənədləşmiş faktlara, mənbələrə müraciət edir. Bioqrafik roman ənənəvi tərcümeyi-haldan hekayə tərzi ilə fərqlənir. Müəlliflər yalnız baş verənləri deyil, həm də bu hadisələri yaratdığı hissləri, mənəvi təcrübələri canlandırır. Tərcümeyi-hal qeyri-bədii əsərdir, müəllif burada yazılanları mümkün qədər dəqiq təqdim etməyi özünə öhdəlik götürür. Tərcümeyi-hal və ya avtobioqrafiya bir şəxsin həyatında baş verən konkret hadisələri, xronoloji ardıcıllıqla verir. Bioqrafik roman isə tərcümeyi-halın əksinə real bir insanın həyatına əsaslanan bədii əsərdir. Bu roman janrında müəlliflər tədqiqat aparır, tarixi reallığa söykənərək bədii-ədəbi üsullardan istifadə edərək əsər yaradırlar. Hər iki forma insan həyatının öyrənilməsinə xidmət edir, biri bədii üsulla digəri sənədləşmiş faktlarla.

**Nəticə / *Conclusion***

Bununla da belə nəticəyə gəlinir ki, bioqrafik roman janrı bədii yaradıcılıqla tarixi bilginin sintezindən yaranan və oxucu auditoriyasına həm fakt, həm də təxəyyül vasitəsilə insan talelərini tanıdan bir janrdır. O, ənənəvi tərcümeyi-halın xronologiyasını aşaraq, hadisələrin emosionallığını, şəxsiyyətin daxili dünyasını və onun dövrünün mədəni-ictimai panoramasını təqdim edir.

Müəlliflər yalnız baş verənləri deyil, həm də həmin hadisələrin yaratdığı hissləri, mənəvi təcrübələri canlandırır. Bu isə bioqrafik romanı həm idrak, həm də estetik baxımından dəyərli edir. Müqayisəli təhlil göstərir ki, Azərbaycan bioqrafik romanı dünya ədəbiyyatının əsas metodoloji meyilləri (epik realizm, romantik idealizasiya və psixoloji yanaşma) ilə paralel inkişaf etmişdir. Bu isə janrın milli ədəbiyyatda sadəcə tərcümə və ya təqlid deyil, həm də ədəbi-nəzəri təkamülün bir hissəsi olduğunu sübut edir. Tarix və təxəyyülün kəsişməsində yaranan bioqrafik roman janrı həm dünya, həm də Azərbaycan ədəbiyyatında oxuculara keçmişi daha dərindən anlamaq imkanı verməklə yanaşı, gələcək üçün də yaddaşın qorunmasına xidmət edir.

**Ədəbiyyat / *References***

Lüksaç, H. (2018). *The art of Literary Biography.* Oxford University Press.

Şərifova, S. (2024). Azərbaycanda roman janrının meydana gəlməsi. *DÜMAD – Dünya Multidisipliner Araştırmalar Dergisi, 7*(2), 28-48.

Heinemann, W. (1914). Plutarch. Parallel Lives (Vitae Parallelae). London.

Power. T. and Gibson, Roy K. (2016) Suetonius the Biographer: Studies in Roman lives. Vol. 109, number 2 Classical World journal.

Plutarch, (1914). Parallel Lives. Vol. 1, Cambridge: Harvard University Press.

Granger Ryan, W. (1993). Voragine, Jacobus de. Legenda Aurea. Princeton University Press.

Fransua-Rene de Ş. (2018) Qəbir arxasında xatirələr New York Review Books

Augustin, C. (1851). Sainte-Beuve, Causeries du lundi. Paris: Garnier Frères.

Толстой, Л. (1863-1869). Война и Мир. Москва: Эксмо

Мишина, Л.А. (2010). Жанр автобиографиив истории Американской литературы.

Əfəndiyeva, G. (2022). Əzizə Cəfərzadə Biblioqrafiya. Bakı

Cəfərzadə,Ə. (1997). Bakı: Azərbaycan Korlar Cəmiyyətnin Mətbəəsi

Rəsulova Ə. (2025). Əzizə Cəfərzadənin tarixi romanlarında tarixilik və müasir tarixçilik https://edebiyyat-az.com/?p=26386

İsayeva, N. (2025). Bir səsin faciəsi. *Gənc tədqiqatçıların VIII respublika elmi konfransının materialları*